BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2010*

# CİNAYƏT HÜQUQUNDA İNSAN HƏYATININ BAŞLANĞICI VƏ SONU PROBLEMİNİN HƏLLİ MƏSƏLƏLƏRİ

**N.K.ƏLİYEV**

***Azərbaycan MEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***

***nazim–aliyev @ mail.ru***

*İnsan həyatının başlanğıcı və sonu anlarının müəyyən edilməsinin təkcə tibb elmi üçün deyil, həmçinin hüquq elmləri, o cümlədən cinayət hüququ üçün mühüm əhəmiyyəti vardır. Məqalədə insan həyatının mayalanma anından, ana bətnində orqanizmin formalaşdığı andan, yoxsa fizioloji doğuş anından başlanılması məsələləri araşdırılır. Cinayət-hüquqi mənada insan həyatının dölün ana bətnindən ayrılması və uşağın müstəqil nəfəs alması anından başlanıldığı, baş beyinin fəaliyyətinin tam halda dayandığı anından isə sona yetdiyi qeyd olunur.*

**Açar sözlər:**
İnsan həyatı, insan həyatının başlanğıcı, insan həyatının sonu, ölüm, kliniki ölüm, patoloji ölüm, yaşamaq hüququ.

Cinayət hüququ üçün insan həyatının başlanğıcı və sonu anlarının müəyyən edilməsinin mühüm əhəmiyyəti vardır. Belə ki, insan həyatının mayalanma anından, ana bətnində rüşeymin – orqanizmin formalaşdığı andan, başqa sözlə, dölün ana bətnindən ayrılmasınadək başlandığını qəbul etdikdə abort əməllərinin insan həyatına qəsd – adam öldürmə kimi qiymətləndirilməsi məsələsi ortaya çıxacaqdır. İnsan həyatının dölün ana bətnindən ayrılmasından sonra başlandığını qəbul etdikdə isə ana bətnində olan dölə qəsd etmə qəsdən adam öldürmə kimi deyil, müvafiq hallardan asılı olaraq ya qanunsuz abort etmə, ya da qadının sağlamlığına ağır zərər vurma kimi qiymətləndiriləcəkdir. Lakin məsələ burasındadır ki, elmi-texniki tərəqqinin yeni inkişaf mərhələsinə daxil olan müasir təbabət belə insan həyatının başlanğıcı və sonu haqqında qəti meyarları müəyyənləşdirməkdə çətinlik çəkir. Bununla belə, fikrimizcə, qanunvericilik haqlı olaraq bu problemin həlli vəzifəsini təbabətin üzərinə qoymuşdur. Müasir dövrdə tibb elmində insan həyatının başlanğıcı anı fizioloji meyarlar əsasında müəyyən edilsə də, aşağıdakı məsələlər də ciddi şəkildə müzakirə olunur: insan həyatı mayalanma anından, ana bətnində orqanizmin formalaşdığı andan, dölün ana bətnindən ayrıldığı andan, yoxsa beyinin və ya ürəyin fəaliyyətə başlaması anından başlanır?

İnsan həyatının başlanğıcı anının müəyyən edilməsinin insanın yaşamaq hüququ ilə birbaşa əlaqəsi olduğu üçün beynəlxalq-hüquqi aktlarda bu məsələnin həlli vəziyyətini öyrənmək istədik. Məlum oldu ki, beynəlxalq-hüquqi aktlarda da insan həyatının başlanğıcı anı (insanın yaşamaq hüququnun yaranma anı) ilə bağlı meyarlar müəyyənləşdirilməmişdir. Bu məsələdə istisnanı yalnız müəyyən səviyyədə 22 noyabr 1969-cu il tarixli «İnsan hüquqları haqqında Amerika

konvensiyası» təşkil edir. Həmin konvensiyanın 4-cü maddəsinin 1-ci hissəsində göstərilir ki, hər bir insan öz həyatına hörmət hüququna malikdir. Bu hüquq qanunla və bir qayda olaraq mayalanma anından müdafiə olunur (13, 721). Beləliklə, bu sənəddə mayalanma anından insan həyatına hörmət hüququ təsbit olunsa da, onun başlanğıcı anına dair konkret müddəa təsbit olunmamışdır.

Qeyd etmək lazımdır ki, elmdə bu problem yeni deyildir, qədim tarixə malikdir. Kanonik hüquqda bu məsələ bir qayda olaraq ruhun bədənə (dölə) nə vaxt daxil olması müddəaları əsasında həll edilmişdir. Azərbaycan dilinin izahlı lüğətinə əsasən ana bətnində bala, rüşeym, maya döl adlandırılır (1, 679). Dini ədəbiyyatlarda bir nöqteyi-nəzərə görə ruh bədənə mayalanma anından daxil olur, ona görə də rüşeym inkişafının müəyyən mərhələsində insan sayılır. Digər nöqteyi-nəzərə görə Allah əvvəlcə insanı yaradır, sonra ona ruhu daxil edir, ona görə də ruha malik, hüquq münasibətlərinin subyekti olan insan haqqında onun ilk nəfəs almasından sonra danışmaq olar. Ruh barəsində isə müqəddəs Qurani-Kərim kitabında göstərilir: «[Ya Məhəmməd!] Səndən ruh [ruhun mahiyyəti və keyfiyyəti] haqqında soruşarlar. De ki: «Ruh Rəbbimin əmrindəndir. [Allahın əmri ilə yaradılmışdır]. Sizə [bu barədə] yalnız cüzi bir bilik verilmişdir!» (4, 364).

Foma Akvinski Bibliyanın qadının doğuşdan sonra təmizlənməsi haqqında müddəalarına əsaslanaraq oğlanlar üçün mayalanmadan sonra 30-cu günü, qızlar üçün isə 80-ci günü ruhun bədənə daxil olması günü kimi müəyyən etmişdir (18). N.D.Antipova Məhəmməd peyğəmbərin hədislərinə əsaslanaraq göstərmişdir ki, Allah rüşeymə üç ay və bir həftə müddət keçdikdən sonra ruhu daxil edir. Ona görə də rüşeym haqqında insan kimi real olaraq hamiləliyin dördüncü ayının 1-ci həftəsi, yəni 100-cü günü danışmaq olar (5, 11).

İndiyədək aborta dair formalaşmış mövqeləri isə iki qrupda təsnifləşdirmək olar: 1) mühafizəkar mövqe; 2) liberal mövqe. Mühafizəkar mövqeyin əsasında dini-əxlaqi dəyərlər dayanır. Din, ümumən abortun əleyhinə olsa da, burada mövcud olan baxışların sərtliyindən asılı olaraq onu iki qrupa ayırmaq olar: qəti mühafizəkar mövqe (katoliklər, buddiistlər) və nisbətən mühafizəkar mövqe (pravoslavlar, protestantlar, o cümlədən islam). Lakin bunların hər ikisini birləşdirən ümumi cəhət vardır ki, o da dölün insan sayılmasıdır. Hesab edilir ki, yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququ olduğu üçün döl də belə hüquqa malik olmalıdır.

Vatikanın mövqeyinə görə, yumurta hüceyrələrinin mayalanması anından başlanan həyat ana və ya ata həyatının davamı deyildir, yeni insan varlığının həyatıdır. Katolik kilsəsinin digər tezisi ondan ibarətdir ki, insan bədəni simasız xarakterə malik deyildir, özünün fərdi «məni»i ilə vahid ümumiliyə malikdir, ruh və bədən vahid substansiyanı yaradır: «mənim bədənim var», «mən elə bədənin özüyəm».

İnsan rüşeymini hüququn subyekti kimi tanıyan katolik kilsəsinin nümayəndəsi J.Sudoya görə rüşeym insan fərdinin aşağıdakı bütün xarakteristikasına malikdir:

- öz həyat və inkişaf proqramı ilə yeni, spesifik bioloji mahiyyətə malikdir;
- yaşlı adamın formalaşma dövrünə qədər müntəzəm inkişafa istiqamətlənmiş daxili dinamizmə malikdir;
- müstəqil orqanizm halında mövcuddur;
- özünün həyati quruluşunun müdafiəsi üçün kənar qüvvələrə ehtiyacı yoxdur;

- genetik proqramların həyata keçirilməsində özünə nəzarət edə bilir;
- yarandığı hüceyrələr onun insana mənsubiyətini ifadə edir (18).

Buddiizm təliminin əsas ideyalarından birini aşağıdakı tezis təşkil edir: insan və ya heyvan olmasından asılı olmayaraq heç kəsi həyatdan məhrum etmək olmaz. Beləliklə, qəti mühafizəkar mövqe abortu qadağan edir və heç bir istisna hal müəyyən etmir. Hamiləlik ana həyatı üçün təhlükəli olduqda belə ona icazə verilmir. Zorlama nəticəsində yaranmış hamiləlik mövcud olduqda belə aborta yol verilmir. Hesab edilir ki, baş vermiş hadisədə uşağın heç bir təqsiri olmadığından bu günahsız varlıq heç bir əzaba məruz qalmamalıdır.

Aborta nisbətən mühafizəkar yanaşan dinlərdə də hamiləliyin süni surətdə pozulması ümumən qadağan edilir, lakin istisna hallarda (tibbi və ya sosial göstərişlər mövcud olduqda) ona icazə verilir. Pravoslav kilsəsinin mövqeyi ondan ibarətdir ki, insan həyatı mayalanma anından başlanır, ona görə də, embrion öz inkişafının bütün mərhələlərində insan ləyaqətinə malikdir. Başqa sözlə, pravoslav məzhəbi formalaşmış döl ilə formalaşmamış və hələ yaranmaqda olan döl arasında heç bir fərq qoymur. Lakin dölün inkişafı ananın həyatı üçün təhlükə yaratdıqda aborta icazə verilir.

İslam teoloqlarının ümumi rəyinə görə abort ruhu öldürdükdə günah sayılır, lakin ruhun bədənə nə vaxt daxil olması məsələsində vahid fikir yoxdur. Hənəfi və Zahidi məktəbləri nümayəndələrinin əksəriyyətinin mövqeyinə görə aborta ilk 120 gün ərzində yol verilə bilər, çünki həmin müddətə kimi rüşeymə ruh daxil olmur. Hənbəli məktəbi nümayəndələrinin mövqeyinə görə isə abort ilk 40 gün ərzində mümkündür. Şəfii məktəbinin bəzi nümayəndələri abortu ilk 80 gün, bəziləri ilk 120 gün ərzində mümkün hesab edir. İslama görə boşanmış qadın uşağın atası ilə bağlı mübahislərin, şübhələrin yaranmaması üçün 90 gün ərzində yenidən evlənməməlidir. Zənn edirik ki, qüvvədə olan qanunvericilikdə aborta icazə verilməsinin müddəti islam müddəaları əsasında müəyyən edilmişdir. Belə ki, Azərbaycan Respublikasının «Əhalinin sağlamlığının qorunması haqqında» qanununun 30-cu maddəsinə əsasən hamiləliliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12 həftəlik müddətinədək aparıla bilər.

Aborta dair liberal mövqeyin əsasında isə vətəndaş əxlaqı, şəxsiyyətin öz müstəqilliyini və müqəddəratını sərbəst təyin etməsini nəzərdə tutan demokratik dəyərlər dayanır.

Liberal ideologiyanın sütununu iki əsas prinsip təşkil edir: 1) insan öz bədəninin sahibidir; 2) döl hələ şəxs statusuna malik deyildir.

Birinci prinsip ilk əvvəl mövqeyini tibbi göstərişlər əsasında qazandı, 19-cu əsrin ortalarından isə dövriyyəyə «sosial göstərişlər» anlayışı daxil oldu. Sosial göstərişlər ilk əvvəl zorlama və sair xoşagəlməz hallar nəticəsində yaranan hamiləlik hallarını nəzərdə tuturdusa, sonralar onun dairəsi daha da genişləndi (ailə həyatının şəraitsizliyi, uşaqların sayının çoxluğu və s.). «Əhalinin sağlamlığının qorunması haqqında» qanuna əsasən sosial göstərişlər üzrə abort hamiləliyin 22-ci həftəsinədək aparıla bilər. Tibbi göstərişlər üzrə isə hamiləliyin müddətindən asılı olmayaraq abortun aparılmasına yol verilir.

Avropa ölkələrinin cinayət qanunvericiliyinin təhlili bu dövlətlərdə aborta qanunvericilik səviyyəsində üç növ yanaşmanın mövcud olduğunu deməyə əsas verir. Bəzi Avropa dövlətlərində (İsveçrə, İrlandiya, Portuqaliya və s.) hamiləliyin süni surətdə pozulmasına yalnız tibbi göstərişlər mövcud olduqda icazə ve-

rilir. İsveçrədə hətta hamilə qadının özünün öz hamiləliyini pozmasına, yəni özünüabort aktına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Bəzi Avropa dövlətlərində (Fransa və s.) aborta hamiləliyin 12 həftəlik müddətinədək icazə verilir, bu müddətdən sonra isə aparılan abort yalnız tibbi göstərişlər mövcud olduqda qanuni sayılır. Bəzi dövlətlərdə isə (İngiltərə, İslandiya, Finlandiya və s.) tibbi və ya sosial göstərişlər mövcud olduqda aborta müddətindən asılı olmayaraq icazə verilir.

Cinayət hüququ elmində insan həyatının başlanğıcı anı haqqında diskussiya qanunvericilikdə ananın yeni doğduğu uşağı qəsdən öldürməsi cinayət tərkibinin təsbit edilməsindən sonra yenidən canlandı. Müzakirə predmeti olan sualın məzmunu yenə də eyni idi: insan rüşeymi və ya döl öz inkişafının hansı mərhələsində həyat, başqa sözlə ana orqanizmindən kənarda yaşaya bilmək qabiliyyətinə malik olur? F.Y.Səməndərovun redaktəsi ilə buraxılmış Azərbaycan Respublikası CM-nin Kommentariyasında göstərilir ki, adətən VII qəmər ayından sonra doğulmuş, dölün bədəninin uzunluğu 40 sm-dən çox, çəkisi 1500-1600 qram olan uşaq yaşama qabiliyyəti olan uşaq sayılır (3, 287). Böyük Tibb Ensiklopediyasına əsasən isə 7 aylıq bətndaxili inkişaf dövrünü keçirmiş, bədəninin uzunluğu 35 sm-dən, çəkisi isə 1000 qramdan az olmayan uşaq həyat qabiliyyətli sayılır.

Lakin tibb elminin nailliyyətləri və mövcud reallıqlar hüquq elminin qarşısında həllini tələb edən yeni vəzifələr qoyur. Məsələn, 1970-ci ildə Çində çəkisi cəmi 250 qram, bədəninin uzunluğu isə 15 sm olan qız uşağı doğulmuşdur. 15 yaşında onun çəkisi 7,5 kq, uzunluğu 86 sm olmuşdur. Uşağın psixi inkişafında hər hansı qüsur qeydə alınmamışdır. Yaxud bütün dünyaya Kenni Kinqin hamiləliyin 19-cu həftəsində (5 ayı tamam olmamış) diri doğulması hadisəsi məlumdur. K.Kinq doğulanda çəkisi 510 qram olmuşdur (18). Bu məlumatlar onu göstərir ki, həyat qabiliyyətliliyin kəmiyyət əlamətlərində dəyişikliklərin edilməsi zəruridir.

Düzdür, hamiləliyin erkən vaxtlarında, o cümlədən 19-20-ci həftələrində doğulan uşaqların həyatını xilas etmək heç də asan deyildir və dünyanın əksər ölkələrində buna praktiki olaraq nail ola bilmirlər. Lakin dünyanın inkişaf etmiş ölkələrində hamiləliyin 21-22-ci həftəsində doğulan uşaqların həyatını xilas etmək elə də çətin deyildir. Bununla belə, İsveçrə Konfransının ginekoloqları, pediatrları və neonatoloqları iqtisadi hesablamalara əsaslanaraq tövsiyə etmişlər ki, vaxtından əvvəl, yəni hamiləliyin 25-ci həftəsindən əvvəl dünyaya gəlmiş uşaqların tibbi xidməti müvəqqəti yüngüllük gətirən tədbirlərlə məhdudlaşdırılmalıdır. Belə ki, həyatı hər an ölüm qarşısında olan vaxtından əvvəl doğulmuş bir uşağın intensiv terapeyası 150.000 avroya başa gələ bilir. Əlbəttə, bu zaman aşağıdakı sual yarana bilər: səhiyyənin digər sahələrində müəyyən zəruri tələbatlara ciddi ehtiyac olduğu bir şəraitdə yaşamaq şansı çox cüzi olan belə uşaqlara bu qədər maliyyə vəsaitinin xərclənməsi nə dərəcədə məqsədəuyğundur? İsveçrəli həkim K.Zayts hesab etmişdir ki, hamiləliyin 26-cı həftəsindən əvvəl dünyaya gəlmiş bütün uşaqlar həyatlarının keyfiyyətini məhdudlaşdıran hansısa əqli və ya fiziki qüsurlara malik olurlar (11).

Bununla belə, dünyanın bir sıra qabaqcıl dövlətlərində hamiləliyin erkən mərhələsində doğulmuş uşaqların sağalmaları istiqamətində ciddi işlər görülür. Məsələn, Almaniyada statistikaya əsasən belə doğulmuş uşaqların 75 faizi sağalır. Rusiya Federasiyasında hər il 500-1000 qram çəkisində təxminən 20000 uşaq dünyaya gəlir. Belə uşaqların həyatı ya valideynləri imkanlı oduqda, ya da

sponsorlar tapıldıqda xilas edilir. Çünki Rusiya Federasiyasında çəkisi yalnız 1000 qramdan artıq olan üşaqlar tibbi sığortanın təsiri altına düşürlər. Bu ölkədə belə uşaqlara gün ərzində qulluq etmə təxminən 1000 ABŞ dollarına başa gəlir (19). Vaxtından əvvəl dünyaya gələn uşaqların sağalmaları üçün xüsusi klinikalar, avadanlıqlar, preparatlar və ixtisaslı mütəxəsislər lazımdır. Hər bir ölkənin iqtisadi qüdrəti isə buna imkan vermir.

A.N.Krasikov hesab etmişdir ki, insan həyatının başlanğıc anının müəyyən edilməsi üçün diri doğulma, ölü döğulma və perinatal dövrün meyarlarını rəhbər tutmaq lazımdır. Müəllifə görə insan həyatının başlanğıc anı hamilənin orqanizmindən mayalanmış maddənin (dölün) tam çıxarıldığı, yəni dölün ana orqanizmindən ayrıldığı və döldə tənəffüsün, ürək və göbək döyüntüsünün olması və ya əzələlərinin sərbəst hərəkətinin başladığı an sayılır (10, 44). Dölün ana bətnindən ayrılması zamanı uşaq ölü də doğula bilər. Diri doğulan uşaqda anadangəlmə aşağıdakı şərtsiz reflekslər mövcud olur: əmmə, udma, göz qırpma, asqırma, defekasiya aktı, sidiyə getmə və s.

F.Y.Səməndərovun redaktəsi ilə buraxılan Azərbaycan Respublikası CM-nin Kommentariyasının müəllifləri hesab etmişlər ki, insanın həyatı doğumla – uşağın ana bətnindən ayrılması ilə müşayiət olunan fizioloji doğumla başlayır. Doğuma qədər ana bətnində dölə təsir göstərilməsi abort sayılır. Doğulduqdan sonra uşağın həyatdan məhrum edilməsi adam öldürmə hesab edilir (3, 268).

S.A.Boyarov göstərmişdir: «İnsan həyatının başlanğıcı ananın orqanizmindən ürək döyüntüsü olan yeni doğulmuşun bədəninin bir hissəsinin çıxdığı an sayılır. Ana bətnində olan döl yalnız bir əlamət istisna olmaqla həyatın bütün əlamətlərinə malik olur. Belə ki, döl ana orqanizminin tərkib hissəsi sayılır, hələ müstəqil yaşaya bilmir və doğuş zamanı kənar şəxslərin iradələrindən asılı olmadan qabaqcadan görülməsi mümkün olmayan müxtəlif vəziyyətlər yarana bilinəcəyindən cinayət-hüquqi mənada öz müdafiə hüququnun subyekti sayılmır» (7, 14).

Ananın ölümündən sonra da uşağın diri doğulması mümkündür. Uruqvayda doğum evinə gedən hamilə qadın yolda ürək infarktından həyatını itirir. Təcili yardım stansiyasının həkimləri xüsusi aparat vasitəsi ilə ananın orqanizmində süni qan dövranı yaratmış, 45 dəqiqə sonra qeysəriyyə əməliyyatı yolu ilə ölmüş ananın bətnindən sağlam vəziyyətdə olan qız uşağını çıxarıb yaşamasını təmin etmişlər. Yaxud Yurmala şəhərində baş vermiş avtomobil qəzası nəticəsində hamilə qadın həyatını itirir. Təcili yardım stansiyasının həkimləri ananın ölüm faktını təsdiq edir və hadisə yerini tərk edirlər. Bir azdan hadisə yerində olan insanlar ölmüş ananın qarın nahiyəsində, bətnində olan dölün hərəkət etdiyini görur və polis əməkdaşlarından təcili həkim çağırılmasını tələb edirlər. Hadisə yerinə gələn həkimlərin təcili müdaxiləsi ölmüş ananın sağlam uşağının dünyaya gəlməsi ilə nəticələnir.

Ənənəvi olaraq insan həyatının başlanğıcı anı fizioloji doğuş prosesinin başlanması ilə müəyyən olunur ki, bu da mütləq olaraq ana bətnindən dölün ayrılması və müstəqil tənəffüsün başlanması ilə əlaqələndirilir.

A.İ.Raroqun redaktəsi ilə buraxılan dərsliyin müəllifləri göstərmişlər: «Doğuş – hamiləliyin əvvəli uşaqlıq əzələsinin ritmik azalması, sonu isə dölün çıxarılması ilə müşayiət olunan mürəkkəb, axırıncı fizioloji prosesidir. Doğuş dölün başının uşaqlıq boşluğundan çölə çıxması ilə başlanır, lakin bəzi hallarda anomaliyalar da mümkündür. Doğuş zamanı uşağın ilk nəfəs alması ilə ciyərləri

açılır. Adətən bu, uşağın birinci qışqırmağı ilə müəyyən olunur. Bu andan etibarən insan həyatının başlanmasından danışmaq olar. Lakin ana bətnindən çölə tam çıxmamış və müstəqil həyata başlamamış uşağın həyatına qəsd etmə qəsdən adam öldürmə sayılmalıdır (16, 20).

Fikrimizcə, Azərbaycan Respublikası CM-nin 121-ci maddəsinə əsasən doğuş prosesində, daha dəqiq desək, doğuş vaxtı və ya doğuşdan dərhal sonra uşağın həyatı cinayət cəzası təhdidi ilə qorunur. Ana bətnində olan dölə qəsd etmə qəsdən adam öldürməyə görə deyil, qanunsuz abort etmə və ya qadının sağlamlığına ağır zərər vurmaya görə cinayət məsuliyyətinə səbəb olur.

Qeyd etmək lazımdır ki, hüquq ədəbiyyatında insan həyatının fizioloji doğuşun başlanmasından əvvəl yaranması barədə də mövqelər vardır. Məsələn, T.Volkova göstərmişdir: «Ana bətnində fizioloji formalaşmış həyat qabiliyyətli uşağın həyatına hamiləliyin sonuna az qalmış müddətlərdə cərrahiyyə əməliyyatının aparılması yolu ilə də son qoyulur və belə əməllər insan həyatına qəsd etmə kimi qiymətləndirilmir. Yeni doğulmuş uşağın cinayət-hüquqi mühafizəsi kontekstində dövlət təkcə uşağın doğum hüququnu təmin etməli deyil, həmçinin onun doğulması dövründə həyatını maksimum səviyyədə müdafiə etməlidir» (8, 23).

N.E.Krılova bu istiqamətdə daha sərt çıxış etmişdir: «Yer üzündə yaşayan hər bir kəs doğulmazdan, şəxsiyyətin hüquqi statusunu əldə etməzdən əvvəl embrion (rüşeym) dövrünü keçirmişdir. Əgər cinayət qanunu heyvanları müdafiə edərək onlarla ölümlərinə və ya şikəst olmalarına səbəb olan qəddar rəftar etmə üstündə cinayət məsuliyyəti nəzərdə tutursa (RF CM-nin 245-ci maddəsi), insan rüşeyminin belə əməllərdən müdafiəsindən nə səbəbdən imtina etmişdir?» (12, 45).

Son illərdə müdafiə olunmuş bir neçə dissertasiya işində həyatın başlanğıc anının müəyyən edilməsi ilə bağlı yeni mövqelər irəli sürülmüşdür. Məsələn, O.Q.Selixova göstərmişdir ki, insanın bətndaxili inkişaf dövrü onun bioloji həyatının ilkin mərhələsi sayılır. Ana bətnində rüşeym vəziyyətində olan döl bədən olaraq müstəqildir, öz daşıyıcı orqanizminin hissəsi sayılmır və sərbəst inkişaf etməyə qabildir. Çünki döldə baş verən həyati proseslər onun inkişafının daxili hərəkətvericisi qismində çıxış edir. Ana bədəni rüşeymin inkişafı, qidalanması üçün yalnız ideal mühit rolunu oynayır. İnsanın doğulması ilə onun bioloji mövcudluğunun ikinci mərhələsi, daha dəqiq, orqanizminin sosial mühitə keçməsi dövrü başlanır. Müəllif, bu əsasa görə insan həyatının doğum anından başlanılması ilə bağlı olan mövqeyin səhv olduğunu göstərmiş və həmin fikrin korrektə olunaraq «insanın sosial həyatı doğum anından başlanır» məzmununda ifadə olunmasını təklif etmişdir (15, 13-14).

Zənn edirik ki, bioloji həyat ilə sosial həyatın fərqləndirilməsi tibb və fəlsəfə elmləri nöqteyi-nəzərindən zəruri olsa da, hüquqi məsələlərin həlli üçün bunun elə də ciddi əhəmiyyəti yoxdur. Konstitusiya hüququ yaşamaq hüququnu təsbit edərkən ilk olaraq bioloji həyatı nəzərdə tutur. Əgər bioloji həyatın mayalanma anından başlanıldığını qəbul etsək, onda aborta və biotexnoloqlar tərəfindən rüşeym üzərində aparılan müəyyən eksperimentlərə qadağa qoyulmalıdır.

N.İ.Besedkina hesab etmişdir ki, rüşeymin statusuna hüquqi münasibət onun ana orqanizminin tərkib hissəsi kimi deyil, yeni həyatın başlanğıcı kimi qəbul edilməsi səviyyəsində dəyişilməlidir (6, 12). O.Y.Kosova daha radikal çıxış edərək göstərmişdir ki, dövlət leqal abortun sərhədlərini genişləndirməklə ananın yeni doğduğu uşağını qəsdən öldürməsinə hüquqi cəhətdən haqq vermiş olur (9, 10).

Hamilə qadın üzərində aparılmış tədqiqatlarla müəyyən edilmişdir ki, mayalanmadan sonra 18-ci gündə (3-cü həftədə) döldə ürək döyüntüsü, qan dövranı yaranır, sinir sisteminin əsasları formalaşır, hamiləliyin 12-ci həftəsində isə döldə orqanizmin bütün sistemi fəaliyyətə başlayır. Baş beyinin impulslarının mövcudluğu insanın həyat əlaməti, yoxluğu isə ölüm əlaməti sayılır. Ona görə də bu zaman baş beyinin və ürəyin nə vaxt işə başlaması, bədən orqanizminin formalaşması anları haqqında məlumata malik olmanın zəruri olduğu aydın olur.

2002-ci ildə Moskvada çap olunmuş «Bioetika» dərsliyində göstərilir ki, hamiləliyin 18-ci həftəsində uşaq tam formalaşır, 14-cü həftədə gün ərzində ürəyi təxminən 24 litr qan vurur, 12-ci həftədə uşaqda barmaq izləri mövcud olur, 11-ci həftədə bütün orqanlar sistemi işləməyə başlayır. Həmin vaxt uşaq göz qapaqlarına, dırnağa, insana doğulandan sonra xas olan bütün əlamətlərə malik olur. Bu vaxtdan etibarən artıq mövcud olan daxili orqanların böyüməsi və inkişafı prosesi gedir: skelet, sinir, qan dövranı, tənəffüs və s. mövcud olur. 10-11-ci həftədə uşaq toxunmanı, ağrını, işığı, istiliyi və səsi hiss edir. 50-ci gündə beyinin impulsları qeydə alınır, mayalanmadan 18 gün sonra ürək döyüntüləri hiss olunur, özünün qan dövranı sistemi fəaliyyətə başlayır. 14-cü gündən sonra primitiv xorda (bel sütunu fəqərəsi) formalaşır, bundan sonra isə hüceyrələrin dəqiq differensiasiyası baş verir. 14-cü gün terapevtik klonlaşdırmanın əsasını təşkil edir və bir sıra ölkələrdə rüşeym üzərində eksperimentlərin həyata keçirilməsinə icazə verildiyi müddət sayılır (14, 158).

Fikrimizcə, bəhs etdiyimiz məsələdə hüquqi nöqteyi-nəzərdən yekun rəyə gəlməyimizdə ABŞ Ali Məhkəməsinin 1973-cü ildə Roe v. Wade işi üzrə çıxarmış olduğu qərarın əhəmiyyəti olduqca mühümdür. Qərarda göstərilmişdir: «Biz insan həyatının nə vaxt başlanılması kimi çətin, mürəkkəb məsələ barəsində qərar qəbul etməli deyilik. Madam ki, bu məsələdə müvafiq sahələrin mütəxəsisləri – həkimlər, filosoflar və teoloqlar vahid fikrə gəlməmişlər, onda elmin inkişafının müasir mərhələsində bu mövzunun həllini məhkəmənin səlahiyyətinə aid etməli deyilik» (17, 17).

Biz də hesab edirik ki, insan həyatının başlanğıcı anını hüquqşünaslar müəyyən etməli deyillər. Lakin razılaşmalıyıq ki, subyektiv hüquqların yaranma anının müəyyən edilməsi məsələsi tibbi, fəlsəfi deyil, hüquqi məsələdir və dövlətin iradəsi ilə müəyyən olunur. İnsan həyatının başlanğıcı və sonu (bunu insan həyatının hüquqi sərhədləri də adlandırmaq olar) hüquqi fakt olmaqla hüquq münasibətlərinin yaranması, dəyişməsi və xitam olunması ilə bağlı hadisəni əks etdirir. Hüquqşünaslığın qarşısında bu problemin həllinin vacibliyi ondan ibarətdir ki, insan həyatının başlanğıcı anının (və ya yaşamaq hüququnun) nə vaxtdan yaranması məsələsinin formal olaraq müəyyən edilməsi səlahiyyəti qanunvericiliyə aiddir. Hüquqşünaslıq bundan çıxış yolunu hüquq subyektliliyin yaranma anının müəyyən edilməsində görür və sonuncu məsələni doğum faktı ilə əlaqələndirməklə həll edir. Çünki doğum hüquqi faktdır, vizual olaraq qeydə alınır. Yalnız doğulmuş insan hüquq münasibətlərinin əhatə dairəsinə daxil ola bilər, hüquqi əhəmiyyətli hərəkətlər edə bilər.

Fikrimizcə, cinayət hüququnda haqlı olaraq insan həyatının başlanğıcı fizioloji doğum, yəni dölün ana bətnindən ayrılması və uşağın müstəqil nəfəs alması prosesinin başlanması anı ilə əlaqələndirilir. Lakin bu, rüşeymin insan təbiətinin inkar edilməsi kimi nəzərdən keçirilə bilməz. Əlbəttə, bu zaman aşağıdakı sual yarana bilər: əgər hələ doğulmamış şəxs - döl ana orqanizmindən kənar

yaşaya bilmirsə, müstəqil fəaliyyət göstərmək qabiliyyətindən məhrumdursa, müstəqil tənəffüsü yoxdursa, qan dövranı sistemi ana orqanizmindən asılıdırsa, onun insan kimi yaşaması, başqa sözlə insan həyatının başlanılması haqqında danışmaq olarmı? Hesab edirik ki, insan həyatı, nə vaxtdan başlanılmasından asılı olmayaraq, hər bir zaman: həm doğulanadək, həm də doğulandan sonra mühafizə olunmağa layiqdir.

Beləliklə, bəhs etdiyimiz mövzuda nəzərə almaq lazımdır ki, hüquqi statusa malik olma xüsusi atributdur, subyektə dövlət ərazisində olduğu və ya yaşadığı üçün verilir, elə buna görə, də çox məsələlər hüquq vasitəsi ilə tənzimlənir. Kəşf olunmamış adada tənha yaşayan insanın nə dövlət təsisatına, nə də hüquq subyektliliyinin tanınmasına ehtiyacı olacaqdır. Qanunvericilikdə hansısa hüququn təsbit olunmaması onu ifadə etmir ki, insan bu və ya digər hərəkəti etməkdən büsbütün məhrum edilmişdir. Eləcə də konstitusiyada yaşamaq hüququnun təsbit olunması onu ifadə etmir ki, insanın yalnız bu hüququ nəzərdə tutan ölkədə yaşamasına icazə verilir, onu nəzərdə tutmayan ölkələrdə isə yaşamasına icazə verilmir (məsələn, keçmiş SSRİ-nin konstitusiyalarında yaşamaq hüququ bilavasitə təsbit olunmamışdı).

Bu məqamda müxtəlif səbəblər üzündən insan mühitindən ayrı düşmüş və heyvanlar tərəfindən tərbiyə olunmuş insanların hüquqi statusu maraq doğurur. R.Kiplinqin yaratdığı əsərin qəhrəmanı olan Mauqli heç də yalnız yazıçı təxəyyülünün məhsulu deyildir. 1976-cı ildə Hindistanda canavar balaları ilə oynayan bir oğlan uşağına rast gəlinir. Danışa bilməyən bu uşaq heyvan kimi ulayır, bağırır, çiy ət yeyir, dörd ayaqlı kimi hərəkət etmişdir. 9 il ərzində ona əvvəlcə bir kəndli ailəsində, sonra isə monastrda insanın həyat tərzinin öyrədilməsinə ciddi səylər göstərilir, lakin bunun heç bir səmərəsi olmur. Uşağın səhhəti pisləşir, dərmannların heç bir köməyi dəymir və o, «insana çevrilmədən» ölür.

Qanunvericilikdə fiziki anomaliyalarla doğulmuş, letargiya yuxusuna tutulmuş şəxslərin də hüquqi statusu ilə bağlı məsələlərin sonacan tənzimlənmədiyini qeyd etmək lazımdır. 1950-ci ildə Moskva şəhərində bellərinəcən bir-birlərinə birləşmiş iki əkiz qız doğulur. Bu qızların hər biri ayrı beyin sisteminə malik olmaqla bir ayaqla hərəkət edirlər. 16 yaşları tamam olanda onların hər birinə şəxsiyyətlərini təsdiq edən pasport verilmişdi. Yaxud 1988-ci ildə CAR-da iki başa, lakin bir bədənə malik olan qız uşağı doğulmuşdu. İnformasiya bolluğunun olduğu müasir dövrümüzdə belə fiziki anomaliyalarla doğulan uşaqlar barəsində, demək olar ki, tez-tez məlumatlar almaq olur.

Letargiya yuxusuna tutulmuş şəxslərin statusu da maraqlıdır. Məsələn, Çində bir yaşlı uşaq çarpayıdan yerə yıxılır və boyun nahiyəsindən zədə alır. Uşaqda nəfəs alma, ürək döyüntüsü, udma kimi reflekslər mövcud olsa da, 11 il koma vəziyyətində qalır. Uşağın beynində olan şiş cərrahiyə əməliyyatı yolu ilə götürüldükdən sonra o, koma vəziyyətindən çıxır. Yaxud 1954-cü ildə Dneprpetrovsk şəhərində ailədə baş vermiş mübahisədən sonra ana huşunu itirir və yuxuya gedir. Ailə üzvləri onu yuxudan ayılda bilmədiklərindən xəstəxanaya gətirirlər. Xəstəxanada həkimlərin müşahidəsi altında yuxulu vəziyyətdə 4 il ərzində zond vasitəsi ilə qidalanır. Bundan sonra anası onu yaşadığı kəndə aparır. Burada da həmin qadın 16 il ərzində yuxudan oyanmır. Anasının ölüm günü yuxudan oyanan qadın iki həftə ərzində psixoloji cəhətdən yeni həyata uyğunlaşır, lakin 20 il ərzində onunla nə baş verdiyini xatırlamır.

Fikrimizcə, həm letargiya yuxusunda olanlar, həm də insan cəmiyyətindən ayrı düşərək təbii mühitdə heyvanlar tərəfindən tərbiyə olunmuş şəxsləri hüququn subyekti kimi tanımaq lazımdır. Onlar anlaqsız olmasalar da, mövcud vəziyyətlərində belə şəxslərə müəyyən səviyyədə oxşayırlar. Zənn edirik ki, əgər bu şəxslər hərəkətlərinin mahiyyətini dərk etməyərək ona rəhbərlik edə bilmirlərsə, məhkəmə tərəfindən fəaliyyət qabiliyyətsiz elan edilə bilərlər.

İnsan həyatının başlanğıcı anının müəyyən edilməsi ilə əlaqədar bizim üçün həlli vacib olan digər məqam embrionun və ya dölün öz inkişafının hansısa mərhələsində insan hüquqlarını əldə edib-etməməsi, başqa sözlə hüquq münasibətlərinin subyekti olub-olmaması sualıdır. Macarıstan Mülki Məcəlləsinə əsasən insan diri doğulduqda, mayalanma anından hüquq qabiliyyətli sayılır. Ona görə də, Macarıstanda «Doğulmamışların həyatlarının müdafiəsi» adlı təşkilat da yaradılmışdır. Macarıstan MM-nin bu məsələdə əsas prinsipi ondan ibarətdir ki, döl mayalanma anından insan sayıldığından həm ana bətnində, həm də doğulandan sonra inkişaf etmək kimi təbii hüquqa malikdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 25.2-ci maddəsinə əsasən fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir. Lakin nəzərə almaq lazımdır ki, uşaq doğulanadək də bir sıra məsələlərdə onun mülki-hüquqi müdafiəsi həyata keçirilir. Məsələn, MM-nin 25.3-cü maddəsinə əsasən vərəsə olmaq hüququ maya bağlandığı andan əmələ gəlir, bu hüququn həyata keçirilməsi isə yalnız doğumdan sonra mümkündür.

Qeyd etməliyik ki, bu məsələdə də vahid mövqe yoxdur. Bəzilərinə görə uşağın subyektiv hüquqları doğulduğu andan, bəzilərinə görə isə rüşeym anından yaranır. Hesab edilir ki, rüşeym genetik olaraq anadan fərqlidir, öz daşıyıcı orqanizminin hissəsi deyildir və öz-özünə inkişaf etməyə qabildir. Hüquq subyektliliyin yaranmasının doğum faktı ilə əlaqələndirilməsi daha məqsədəuyğun sayılır.

Həyatın sonu ilə də bağlı fərqli mövqelər mövcuddur. «Həyatın sonu» və «ölüm» anlayışlarını eyniləşdirmək olarmı? Azərbaycan dilinin izahlı lüğətinə əsasən ölüm orqanizmin həyat fəaliyyətinin həmişəlik dayanması və onun məhv olması, orqanizmdə və ya onun bir hissəsində maddələr mübadiləsinin dayanması, kəsilməsi mənasını ifadə edir (2, s. 550). Ölüm – fərdin xüsusi canlı sistem kimi mövcudluğunun xitamı, orqanizmin həyat fəaliyyətinin qurtarmasıdır.

Ölümün aşağıdakı növləri fərqləndirilir: sosial ölüm, beyinin ölümü, fizioloji ölüm, təbii ölüm, qeyri-təbii ölüm, patoloji ölüm (hissəvi ölüm də qeyd ounur, bu zaman insanın bütün orqanizmi deyil, müəyyən hüceyrələr qrupu və ya hansısa orqanın (toxumaların) ölümü baş verir). Ümumən isə insanın ölümü fizioloji və patoloji (bioloji) ola bilər. Fizioloji ölüm çox qocalıqla əlaqədar olaraq orqanizmin təbii inkişafının sonu olaraq maddələr mübadiləsinin başa çatması, həyati proseslərin tədricən sönməsi nəticəsində baş verən ölümdür. Fizioloji ölum cinayət-hüquqi mənada əhəmiyyət kəsb etmir.

Hüquqşünaslar adətən iki ölümü fərqləndirirlər: kliniki ölüm və bioloji (patoloji) ölüm. Ürək və tənəffüs fəaliyyətinin dayanması anında kliniki ölüm baş verir. Kliniki ölüm mərkəzi sinir sisteminin uzunsov beyinlə birlikdə fəaliyyətinin daha dərin itirilməsi, qan dövranı və tənəffüsün dayanması ilə xarakterizə olunur. Kliniki ölümün davam etmə müddəti normotermiya şəraitində 8 dəqiqəyə yaxındır (3, 268). İnsan kliniki ölüm vəziyyətində hüququn subyekti sayılır, çünki onun həyatı hələ davam edir və həkimlərin səyi nəticəsində insanın həmin

orqanlarının öz fəaliyyətini yenidən bərpası mümkündür. Qan dövranının dayanmasına daha hissiyyatlı olan beyinin ölümündən sonra insanda digər orqan və toxumaların ölümü baş verir. Bioloji ölüm isə dönməzdir, bu zaman heç bir tibbi manipulyasiya insan həyatının bərpasına gətirib çıxarmır.

Ötən əsrin 60-cı illərindən ABŞ, Böyük Britaniya, Fransa və s. ölkələrdə xüsusi klinikalar yaradılmağa başlandı. Həmin klinikalarda pasiyentin arzusu ilə onun meyidi kliniki ölümün baş verməsindən bir neçə dəqiqə sonra buzlaşdırılır və heç bir hava daxil olmayan germetik bağlanmış, aşağı temperaturlu azot mayesi ilə doldurulmuş silindrdə saxlanılır. Pasiyentin bu zaman məqsədi müxtəlif ola bilər; ya bununla ömrünü uzatdığını zənn edir, ya ölümünə səbəb olan xəstəliyinin müalicə üsulunun və ya dərman vasitəsinin tapılacağına ümid edir, ya gələcəyi görmək arzusunda olur və s. Lakin əksər ölkələrin alimləri hesab edirlər ki, «buzlaşdırma» ilə kliniki ölümün müddətini 40-60 dəqiqəyədək uzatmaq olar, bundan sonra baş beyin hüceyrələrinin dönməz surətdə dağılması labüddür.

Yaxın zamanlaradək insan həyatının başa çatması başqa meyarlarla müəyyən edilirdi. Ürək fəaliyyətinin dayanması praktiki olaraq insan həyatının sonu sayılırdı. Kardiorespirator funksiyalarının bərpasının mümkün olduğu vaxtdan etibarən ölüm anı ürək fəaliyyətinin dayandığı an hesab olunmur. Müasir tibb elmi ölümü hüceyrələrinin ölməsi nəticəsində baş beyin qabığının fəaliyyətinin tam halda dayanması ilə əlaqələndirir. Hazırkı dövrdə tibb elmi o səviyyədə inkişaf etmişdir ki, baş beyinin faktiki ölümü zamanı belə orqanizmin xarici funksiyaları xüsusi preparatlar vasitəsilə xeyli müddətə qorunub saxlanıla bilir. Başqa sözlə, süni yolla həyat görüntüsü yaradılır: ağ ciyərlər nəfəs alır, ürək qanı ötürür və s. İnsan bu vəziyyətdə hər hansı optimist proqnoz olmadan xeyli müddət ərzində saxlanıla bilər. Lakin nəzərə almaq lazımdır ki, bu zaman aparılan reanimasiya tədbirləri faktik olaraq əslində ölü üzərində həyata keçirilir.

Bu məqamda qeyd etməyi zəruri sayırıq ki, insan rüşeymindən elmi-tədqiqat və ya tibbi məqsədlər üçün istifadə məsələlərinin də müəyyən səviyyədə hüquqi tənzimlənməsinə ehtiyac vardır. Məsələn, Çin cərrahları epilepsiya xəstəliyi olan şəxsin baş beyin qabığına abort olunmuş dölün beynindən götürülmüş transplantant köçürmüşlər, nəticədə xəstənin əqli funksiyası yaxşılaşmışdır. Belə hallar qadınların öz dölünü satma məqsədilə hamilləliyə qalma fikrinə düşmələri üçün səbəb ola bilər. Ona görə də ABŞ–da səhiyyənin milli institutları abort olunmuş dölün hüceyrələrindən istifadə ilə bağlı olan işlərə qadağa qoyaraq onların maliyyələşdirilməsini dayandırmışlar. Britaniya Tibb Assosiasiyasının hazırladığı tibbi normativ sənədlərə əsasən yalnız transplantasiya üçün materialın əldə edilməsi məqsədilə mayalanma və abortun edilməsi qadağandır; rüşeym toxumalarından elmi-tədqiqat və ya müalicə məqsədilə istifadə olunması ananın razılığı ilə və embrionun ölümündən sonra mümkündür.

1998-ci ildə Amerika tədqiqatçıları C.Tompson və C.Herxart tərəfindən 20-ci əsrdə biologiya elmində DNT ikili spiralının və insan genomunun açılması kəşflərindən sonra mühümlüyünə görə üçüncü hadisə sayılan insan rüşeyminin gövdə hüceyrələri fərqləndirildi. Bununla da hüceyrə terapiyasının əsası qoyulmuşdur. Artıq müəyyən edilmişdir ki, 12 həftədən böyük olmayan rüşeymin hüceyrələri yeganə toxumadır ki, yaşlı adamın orqanizminə yad ünsür kimi deyil, onun öz toxuması kimi daxil olmaq qabiliyyətinə malikdir. Rüşeym üzərində aparılan tədqiqatlar nə qədər perspektivli olsa da, ABŞ, Almaniya kimi dövlətlər

etik motivlər əsasında bu sahədə aparılan işləri dayandırmışlar. Hesab edirik ki, insan rüşeyminin müdafiəsi biotibbi texnologiyanın yeni kəşfləri ilə müşayiət olunan müasir dövrümüzdə xüsusilə mühümdür.

İnsan beyinin köçürülməsi ilə beyin toxumasının köçürülməsini bir-birindən fərqləndirmək lazımdır. Beyin toxumasının köçürülməsi Parkinson xəstəliyi zamanı həyata keçirilir, bununla beyinin endokrin funksiyalarının bərpa olunmasına şərait yaradılır. Zənn edirik ki, beyinin ölümünün qeydə alınması əslində belə əməliyyatların, metodların həyata keçirilməsininin dayandırılmasına həm hüquqi, həm də mənəvi cəhətdən əsas verir.

Bəzi ölkələrin (Rusiya, İtaliya, Fransa, Finlandiya, ABŞ-ın müəyyən ştatları) qanunvericilik aktlarında beyinin fəaliyyətinin dayandığı an ölüm anı kimi təsbit olunmuşdur. Məsələn, Rusiya Federasiyasının «İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında» 22 dekabr 1992-ci il tarixli qanunun 9-cu maddəsinə əsasən insanın ölüm anı baş beyinin fəaliyyətinin dayandığı an sayılır. Azərbaycan Respublikasının eyni adlı 28 oktyabr 1999-cu il tarixli qanunun 10-cu maddəsində göstərilmişdir ki, meyitdən və ya ölüm vəziyyətində olan şəxslərdən translantasiya məqsədilə orqan və (və ya) toxumaların götürülməsi yalnız həkim konsiliumu tərəfindən bioloji ölümün baş verməsini və baş-beyin fəaliyyətinin tam dayanmasını («beyin ölümünün») təsdiq edən inkaredilməz faktın olmasından sonra həyata keçirilə bilər. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 25.2-ci maddəsinə əsasən beyinin fəaliyyətinin dayanması ölüm anı sayılır. Beləliklə, milli qanunvericiliyimizə əsasən də beyinin ölümü təsdiq olunduqda ölüm baş vermiş sayılır.

Beyinin ölüm faktının qeydə alınması diaqnozunun qoyulması üçün aşağıdakı əlamətlərin mövcudluğu tələb olunur: şüurun tam və sabit olaraq yoxluğu (koma); bütün əzələlərin atoniyası (tonusun itməsi, toxuma və əzələrin süstlüyü, zəifliyi), göz bəbəklərinin açıq birbaşa işığa reaksiyasının olmaması, müstəqil nəfəsalmanın yoxluğu və s. Fərdin ölümü ilə bağlı yaranan bütün nəticələr də məhz bu andan yaranır.

Müasir dövrdə dünyanın bir çox ölkələrində gen mühəndisliyi sahəsində fəal işlər aparılır. Məqsəd yeni faydalı keyfiyyətlərə malik və ya proqrammlaşdırılmış oqanizmlərin yaradılmasına nail olmaqdır. Lakin başa düşmək lazımdır ki, təbabətdə gen mühəndisliyinin son məqsədi əslində süni yolla insan orqan və toxumalarının yetişdirilməsi, insanın klonlaşdırılması, yəni onun dəqiq surətinin alınmasıdır. Fikrimizcə, beyinin köçürülməsi yolu ilə insanda süni yenidənqurmanın aparılması və ya gen mühəndisliyi vasitəsilə insanın klonunun yaradılması cəmiyyətin təbii inkişafını pozmaqla yanaşı, onun gələcək taleyi üçün də arzuolunmaz nəticələrə gətirib çıxara bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. I c. Bakı: Şərq-Qərb, 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. III cild. Bakı: Şərq-Qərb, 2006, 672 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası / F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Diqesta, 2001, 952 s.
4. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov və V.M.Məmmədəliyev / Məsləhətçi-redaktor Şeyxülislam Hacı Allahşükür Paşazadə. Bakı: Olimp konserni, 652 s.
5. Антипова Н.Д. Этические коллизии вокруг проблемы аборта в рамках различных

ценностно-мировоззренческих ориентации // Вест. Моск. Ун-та. Серия 7. Философия. 2005. №1. С.107-119.
6. Беседкина Н.И. Конституционно-правовая защита прав неродившегося ребенка в Российской Федерации. Автореф. дис. … канд. юрид. наук. М., 2005, 22 с.
7. Бояров С.А. Проблемы определения начала жизни человека в уголовном праве // Уголовное право. 2004. № 4, с. 12-16.
8. Волкова Т. Правовая защита права на жизнь новорожденного // Законность. 2004, №4, с. 6.
9. Косова О.Ю. О конституционном принципе защиты семьи государством // Правоведение. 1997. № 2. С. 10-15.
10. Красиков А.Н. Преступления против права человека на жизнь: в аспектах de lege lata и de lege ferenda. Саратов: Саратовский Университет, 1999, 219 с.
11. Краснопольская И., Соколова И. Убийство по диагнозу. Российская Газета, 2002. 30 августа.
12. Крылова Н.Е. Ответственность за незаконное производство аборта и необходимость уголовно-правовой защиты «будущей» жизни // Вест. Моск. Ун-та. Серия 11, Право. 2002. № 6. с. 38-53.
13. Международные акты о правах человека. Сборник документов. М.: НОРМА (Издательская группа НОРМА – ИНФРА. М), 2000, 784 с.
14. Сгречча Э., Тамбоне В. Биоэтика: Учебник: М.: Норма, 2002, 358 с.
15. Селихова О.Г. Конституционно-правовые проблемы осуществления права индивидов на свободу и личную неприкосновенность. Автореф. дисс. … канд. юрид. Екатеринбург, 2002, 28 с.
16. Уголовное право Российской Федерации. Особенная часть: Учебник. Изд-е 2-е, перераб. и доп. / Под ред. А.И.Рарога. М.: Профобразование, 2004, 880 с.
17. Франковски С., Гольдман Р., Лентовска Э. Верховный Суд США о гражданских правах и свободах. Варшава: 1997, 297 с.
18. www.ken.ru

## РЕШЕНИЕ ПРОБЛЕМ ОПРЕДЕЛЕНИЯ МОМЕНТОВ НАЧАЛА И КОНЦА ЖИЗНИ В УГОЛОВНОМ ПРАВЕ

**Н.К.АЛИЕВ**

### РЕЗЮМЕ

Изучение проблемы порога жизни и смерти человека имеет значение не только для медицины, но и правовой науки, в том числе уголовного права. В статье исследуются вопросы юридического определения начала и конца жизни человека. В уголовно-правовом смысле начальным моментом жизни человека считается момент извлечения продукта зачатия из организма беременной, имеющего сердцебиение, а концом жизни считается момент полного и необратимого прекращения деятельности коры головного мозга.

## SOLUTION OF THE PROBLEM OF BEGINNING AND END OF LIFE IN THE CRIMINAL LAW

**N.K.ALIYEV**

### SUMMARY

The article investigates juridical determination of the beginning and the end of human life. In criminal-legal sense the human life covers the period from the moment of extracting the foetus with heart beatings from the mother uterus to the moment of complete afunction of the brain.